**Xalq şairi Nəbi Xəzri gənclər şəhəri Sumqayıtı vəsf etdiyi poemada yazırdı:**

***Sumqayıt cavandır, cavandan cavan,***
***Taleyi, arzusu nura boyanmış.***
***Sumqayıt oxuyur göylərə meydan,***
***Ayağı torpaqda möhkəm dayanmış.***

# Sumqayıt oxuyur göylərə meydan

Sumqayıt bu yaxınlarda 70 yaşını qeyd etdi. Dövlət səviyyəsində qeyd edilən yubiley, Prezidentin təltifləri və şəhərə səfəri ilə başqa bir gözəllik, özəllik qazandı. Həftəsonu Sumqayıtdaydım: şəhərin yubiley havasını həm zahirən, həm də şəhər ziyalıları ilə söhbət imkanı daxilində görmək fürsətim oldu. Sumqayıtın məhz “Gənclər şəhəri” fəxri ünvanı daşıması, həm də, yubiley münasibətli təltifdə yaradıcı insanların olması, məni bir qədər gecikmə ilə də olsa, Sumqayıtla bağlı müəyyən fikirlərimi bölüşməyə sövq etdi.

Sizdən nə gizlədim, sovet dönəmində “kimya şəhəri” kimi ad-san qazanmış, bu səbəblə ekoloji durumu bərbad olan Sumqayıtdan çağdaş Sumqayıtın, necə deyərlər, sıyrılıb çıxması maraqlı hadisədir. Sumqayıt paytaxtın yaxınlığındakı şəhərdir, belə yaxınlıq özünəməxsus haldır. Şəhər deyirsən – şəhərdir, dəniz qırağı deyirsən – var. Özü də kübarlığını imkan daxilində qorumuş şəhərdir. Bu özünəməxsusluq Sumqayıtın daha yaşıl şəhər olması, əhali sıxlığının paytaxta baxanda, daha münasib olması, metrosu olmasa da, metrosuzluğu hiss etdirməyəcək qədər intensiv nəqliyyatın mövcudluğu, hər məhəllədə (kvartalda) xalqa məxsus “mərasim evi”nin fəaliyyət göstərməsi, mədəniyyət obyektlərinin möhtəşəmliyi, “Poeziya evi”nin varlığı, özəlliklə, qaynar ədəbi mühitə sahib olması... kimi məziyyətlərlə, süsləmələrlə də fərqləndirilə bilər.

Üstəlik, Sumqayıt qaçqın, məcburi köçkün el-obalarımızın da ağırlığını dərindən çəkməkdədir. Necə deyərlər, ev evə sığmasa da, el elə sığıb. Gün olsun, Qubadlımızda Sumqayıt küçəsinin, Sumqayıt meydanının açılışına yığışaq!

Bəli, şəhərin yubileyi tədbiri dövlət səviyyəsində diqqət gördü. Cənab Prezident Sumqayıtda oldu, müxtəlif açılışlarda iştirak etdi, yubiley tədbirində geniş nitq söylədi. Dövlət başçısı nitqində, həm sırf şəhərlə bağlı, həm də ümumən respublikamızla bağlı tarixi məqamlara toxunmaqla yanaşı, bugünümüzün dəyərləndirməsini apardı, gələcəyə yönəlik baxışını açıqladı. Gənclər şəhərini böyük sənaye potensialına malik, sürətlə inkişaf edən, gündən-günə abadlaşan gözəl, çağdaş şəhər olaraq xarakterizə edən Prezident, Sumqayıtın şəhər kimi 70 il bundan öncə formalaşdığını xatırlatdı. Dövlət başçısı haqlı olaraq qeyd etdi ki, Heydər Əliyevin fəaliyyəti dövründə Sumqayıt müasir sənaye şəhəri kimi inkişaf etdi, burada yeni yaşayış binaları tikildi, sosial obyektlər yaradıldı, parklar, xiyabanlar salındı, ağaclar əkildi. Sumqayıt Ümumittifaq əhəmiyyətli mühüm sənaye şəhəri kimi inkişaf etdi. 1982-ci ildə ulu öndər Heydər Əliyev Moskvaya gedəndən sonra Azərbaycanın hər yerində olduğu kimi, Sumqayıtda da tənəzzül dövrü başlandı…

Qeyd etdiyimiz kimi, cənab Prezident şəhərin yubileyində yalnız Sumqayıtdan danışmadı. Bu, ən azı, o baxımdan təsadüfi deyildi ki, Sumqayıt “balaca Azərbaycandır”. – Bu, həm əhalinin tərkibi baxımından belədir, həm də şəhərin, şəhər sakinlərinin ötən yüzilliyin 90-cı illərində yaşadıqları baxımından…

“Sumqayıt hadisələri” ümumi adı altında Ermənistanın, erməniyanlıların hər il, özəlliklə hər ilin əvvəllərində bütün dünyada haray-həşir qopardıqlarını bilirik. Əslində, keçmiş SSRİ və Ermənistan kəşfiyyat orqanlarının oyunları, hoqqaları ilə törədilmiş, “oyun içində oyun” hadisələri Sumqayıtımızın, ümumən, Azərbaycanımızın gerçək tarixinin bir parçasına dönüb... – Bu gün də, gələcəkdə də öyrənilsi, nəticə çıxarılası ibrətli hadisələr var!

Bax, bu anlamda Prezidentin, Silahlı Qüvvələrin Ali Baş Komandanının çıxışında Ermənistanın təcavüzkarlıq siyasətinə xüsusi yer ayrılması, heç şübhəsiz, həqiqətlərimizin bir daha diqqətə çatdırılması, duyurulması, yaddaşların təzələnməsi baxımından xüsusi önəm kəsb etdi. – Gənclər şəhərinin gəncləri öz doğma şəhərlərinin dünəni, bugünü və sabaha arzuları ilə tanımalıdır. Necə deyərlər, tanıyınca, özləri sevəcək, zatən... Sülh şəhərini, gənclər şəhərini, möhtəşəm poeziya evli kübar şəhəri, eli elə sığdıran şəhəri necə sevməmək olar?..

Bu yerdə vurğulamaq istərdim ki, vaxtilə mən Dünya Gənc Türk Yazarlar Birliyinə rəhbərlik edərkən, beynəlxalq layihələrimizin bir gününü, ən azı, bir tədbirini Sumqayıta salardıq. Türk dünyası gəncləri gənclər şəhəri ilə tanış olurdu, ağ mərmərli, ağüzlü “Poeziya evi”ndə, ümumtürk məhəbbəti doğuran “Turan” ailəvi istirahət mərkəzində, elə sığınmış elin – Qubadlının Mədəniyyət evində tədbirlər keçirirdik, dünyanın ən böyük gölü – Xəzər dənizinin ləpədöyəninə enirdik və s... – Şeir kimi yəni... -- Əslində, keçmiş zamanda yazmayım gərək, ümidvaram, bu gələcəkdə də belə davam edəcək. Və belə tədbirlər Sumqayıt adı üzərindəki yanlış, erməni təbliğatına qarşı müəyyən təmizləndirmə addımı da sayıla bilər... Üzün həmişə ağ olsun, Sumqayıt!

“...Əgər Heydər Əliyev 1982-ci ildən sonra Moskvaya getməsəydi və Azərbaycanda qalsaydı, bəlkə də 10 il ərzində artıq orada azərbaycanlı əhali 50 faizə çatacaqdı. Dağlıq Qarabağda erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana vermək haqqında məsələ qaldırırdılar. Əfsuslar olsun ki, Azərbaycan Respublikasının rəhbərliyi bu məsələyə çox biganə yanaşırdı, öz məsuliyyətini dərk etmirdi və beləliklə, vəziyyəti nəzarətdən buraxmışdı. Eyni zamanda, erməni millətçiləri Sumqayıtda da yuva qura bilmişdilər və burada da xoşagəlməz proseslərə artıq təkan verilmişdi.

...Sumqayıt hadisələri erməni millətçilərinin təxribatı idi. Biz bunu açıq deməliyik. Çünki artıq neçə ildir ki, erməni millətçiləri Sumqayıt şəhərinə qara yaxmaq, ləkə vurmaq istəyirlər. Tamamilə əsassızdır və cəfəngdir. Tam məsuliyyətlə deyirəm ki, Sumqayıt hadisələrini törədən erməni millətçiləridir və erməni dəstələridir. Biz hamı yaxşı bilirik ki, on nəfərə yaxın ermənini öldürən milliyyətcə erməni Qriqoryan və onun quldur dəstəsi idi. Sonra nə baş verdi?

İstintaqı Moskvadan gəlmiş qrup aparırdı, yəni, tam ədalətli aparırdı. Verilmiş bütün ifadələr, şahidlərin ifadələri, üzləşmələr sübut etmişdi ki, həmin o Qriqoryan erməni xalqının nümayəndələrini qətlə yetirmişdir. O, həbs edilir, bütün sübutlar təsdiq olunur. Ondan sonra o, cəza çəkmək üçün Ermənistana göndərilir və ancaq orada sərbəst buraxılır. Bax, sual yaranır. On nəfərə yaxın ermənini öldürən bir qatili Ermənistan niyə sərbəst buraxır? Ona görə buraxır ki, o, onların tapşırıqlarını icra edirdi. Sumqayıt hadisələrindən istifadə edib Azərbaycana qarşı qarayaxma kampaniyasına başlamış və daha geniş vüsət almışdır və nəticə etibarilə Dağlıq Qarabağ münaqişəsi baş vermişdir. Mən dəfələrlə bunu demişəm, əgər, Heydər Əliyev o vaxt Azərbaycanda olsaydı, heç vaxt Dağlıq Qarabağ münaqişəsi baş verməzdi, heç vaxt torpaqlarımız işğal altına düşməzdi.” – Bu, Azərbaycan Prezidenti İlham Əliyevin Sumqayıt şəhərinin yubiley tədbirindəki nitqindəndir.

Prezident Azərbaycanda təbəddülat, gərginlik, təxribat yaradanlar, hakimiyyətdə olanlar, həmçinin hakimiyyətə can atanlar barədə danışarkən, təəssüf qarışıq sual yaranır: “İlahi, bu gərginliklər, təbəddülatlar olmasaymış, indi Sumqayıt, Bakı, ümumən respublikamız, xalqımız hansı yüksək inkişaf mərhələsində olarmış?!”

Pezidentin Sumaqyıtdakı nitqi şəxsən məndə belə bir fikir hasil etdi: şəhərimizi, paytaxtımızı, ölkəmizi, xalqımızı daha da inkişaf etdirəcəyik! Necə deyərlər, güclü olmağa məhkumuq! Fərd olaraq, ailə olaraq, şəhər olaraq, toplum olaraq, el, xalq, ölkə olaraq! Bu gücə yiyələnincə, dövlətin taleyi təsadüflərin deyil, ağlın, dərrakənin, üfüqügenişliyin fonunda məcra qazanacaq...

Dövlətimiz var olsun! Bayrağımız göy üzündən əskilməsin!

***Əkbər QOŞALI,***
***Azərbaycanda Atatürk Mərkəzinin şöbə müdiri***






Xalq qəzeti.- 2019.- 5 dekabr. S. 9.